**AQİL HÜSEYNZADƏ**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**roy_007@mail.ru**

# BANKLARIN MÜASİR VƏZİYYƏTİ VƏ HÜQUQİ TƏKMİLLƏŞDİRİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Açar sözlər:** bank fəaliyyəti, bankların tənzimlənməsi, hüquqi tənzimlənmə, yol xəritələri
**Key words:** banking activity, regulation of banks, legal regulation, road maps
**Ключевые слова:** банковская деятельность, регулирование банков, правовое регулирование, дорожные карты

Bank sistemi istənilən dövlətin idarə edilməsi üzrə fəaliyyətin təmin edilməsində mühüm rol oynayır. Bu, təkcə onunla bağlı deyildir ki, bank sistemi təsərrüfat subyektlərinin tədavül, yığım və ödəniş münasibətlərinə xidmət edir, eyni zamanda o, inkişaf etmiş ölkələrin pul kütləsinin əsasını təşkil edən və onların kifayət qədər sabit iqtisadi inkişafını təmin edən kredit bazasını yaratmağa qadirdir. Bununla bərabər, bank sistemi fəaliyyətinin əsas prinsiplərinin pozulduğu halda özü iqtisadi qeyri-sabitliyin mənbəyi ola bilər. Pul kütləsinin həddən artıq dərəcədə artması, ödənişlərin pozulması, ictimaiyyətin banklara etibarının azalması nəticəsində bank qurumlarında "tələblərin üst-üstə yığılması" bank sisteminin dağılmasına, iqtisadi fəlakətə, əhali gəlirlərinin azalmasına və ictimai gərginliyin artmasına gətirib çıxara bilər. Bu neqativ halların qarşısının alınması üçün bankların fəaliyyətinin tənzimlənməsi və ona nəzarət sistemi mövcuddur. Yaxın zamanların ümumdünya maliyyə böhranı bank nəzarət və tənzimləmə institutunun zəifliyini üzə çıxarmaqla əsl sınaq məqamına çevrildi ki, bu da müxtəlif ölkələrin mərkəzi banklarının təmsilçiləri tərəfindən təsdiqini tapdı. Böhran bank nəzarətinin kompleks sisteminin yaradılmasının obyektiv zərurət daşıdığını üzə çıxardı. Böhranın ciddi mənfi nəticələri kimi, ictimaiyyətin banklara etibarının azalması faktı gerçəkləşdi ki, bu da iqtisadi inkişafın əngəllənməsində hiss edilən maneəyə çevrildi. İnkişaf etmiş xarici ölkələrdə bank nəzarətinin nəzəriyyə və praktikası çoxillik tarixə malikdir. Bu sahədə nəzarət orqanları və bank auditinin effektiv strukturları formalaşmış, konseptual və sənədli apparat yaranmış, inspeksiya yoxlamaları üzrə nəzərəçarpacaq təcrübənin toplanmasına baxmayaraq, kredit təşkilatlarında baş verən vaxtaşırı müflis olma hallarının qarşısı alına bilmir, habelə onların sağlamlaşdırılması yönündə dövlət və digər orqanların gördüyü tədbirlər lazımi səmərə vermir. Eyni zamanda, bazar şərtləri üçün kifayət qədər

münasib olan bank və digər kredit müəssisələrinin iki səviyyəli sisteminin yaradılmasına təzəcə start verilən postplan iqtisadiyyatlı ölkələrin əksəriyyətində bank nəzarəti və yoxlamalarının inkişafının spesifik xüsusiyyətlərinin aşkara çıxarılması üzrə nəzəri tədqiqatların aparılması son dərəcə aktualdır.Azərbaycanın maliyyə hesabatlarının beynəlxalq standartları sisteminə qoşulması, o cümlədən ölkənin ÜTT-yə daxil olması istiqamətində aparılan danışıqlar fonunda bank nəzarəti sisteminin keyfiyyətinin yaxşılaşdırılması, bankın vəziyyətinin professional və müasir diaqnostikası sahəsində bank nəzarətinin mahiyyət və metodlarının optimallaşdırılması ilə bağlı məsələ xüsusi əhəmiyyət kəsb edir.

**Bank fəaliyyətinin hüquqi tənzimlənməsinin müasir vəziyyəti.** Azərbaycanda bank fəaliyyətinin hüquqi tənzimlənməsi təkmilləşdirilməsi sahəsində təkliflərin işlənməsindən ibarətdir. Qarşıya qoyulan məqsədlərin gerçəkləşməsi aşağıdakı əsas məsələlərin həllini şərtləndirir:

Müasir bank tənzimlənməsi və nəzarəti sistemini, onun normativ hüquqi bazası və təşkilati strukturunu təhlil etmək;

Bank fəaliyyətinin hüquqi tənzimlənməsi və onun metodologiyasının təşkilinin nəzəri əsaslarını öyrənmək;

Müxtəlif ölkələrdə effektiv bank tənzimlənməsi və hüquqi sisteminin qurulmasında istifadə edilən standart və yanaşmaların müqayisəli təhlilini həyata keçirmək və Azərbaycanda bank tənzimlənməsi və nəzarətinin keyfiyyətini artıracaq metodiki tövsiyələri işləyib hazırlamaq;

Azərbaycan bank fəaliyyətinin hüquqi tənzimlənməsi sisteminin cari problemlərini üzə çıxarmaq və bu sistemdə bank nəzarətinin effektivliyinin gücləndirilməsi istiqamətində aparılacaq islahatları əsaslandırmaq;

Qeyri-bank maliyyə təşkilatları da daxil olmaqla, maliyyə bazarının bütün əsas iştirakçıları üçün universal (vahid) profilaktik tənzimlənmə konsepsiyasının işlənməsi;

Bankların hüquqi tənzimlənməsinin beynəlxalq prinsiplərini təhlil etmək və onların Azərbaycanda mümkün tətbiqi şərtlərini tədqiq etmək;

Çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizədə bank nəzarəti sahəsində beynəlxalq əməkdaşlıq və beynəlxalq hüquqi aktların tətbiqi təcrübəsinin öyrənilməsi, beynəlxalq tövsiyələrə uyğun olaraq bank nəzarətinin formalaşması və tətbiqi ilə bağlı xarici nəzəriyyə və təcrübənin mənimsənilməsi;

Bank fəaliyyətinin hüquqi tənzimlənməsinin həyata keçirilməsinin normativ baza və metodikasının perspektiv inkişafı və təkmilləşdirilməsi yollarına dair təkliflərin araşdırılması.

Azərbaycan Respublikasının bank sistemi Azərbaycan Respublikasının Mərkəzi Bankından, Maliyyə Bazarlarına Nəzarət Palatası və kredit təşkilatlarından ibarətdir. Qeyd edilən qurumların fəaliyyətinə Azərbaycan

Respublikasının Konstitusiyası, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Bank olmayan kredit təşkilatları haqqında" və "Kredit İttifaqları haqqında" Azərbaycan Respublikasının Qanunları, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, bu qanunlara uyğun olaraq, qəbul olunmuş başqa normativ hüquqi aktlar, eləcə də Azərbaycan Respublikasının ratifikasiya etdiyi beynəlxalq müqavilələrlə nəzarət edilir. Azərbaycan Respublikasının bank sisteminin institusional və hüquqi quruculuğu 1991-ci ildə dövlət müstəqilliyinin əldə olunmasından sonra başlanmışdır. Bank sisteminin inkişaf mərhələsində qarşıda duran əsas vəzifə bank sisteminin institusional və infrastruktur quruculuğunun, ödəniş sisteminin normal işinin təmin edilməsi olmuşdur. 1992-ci ildə "Azərbaycan Respublikasının Milli Bankı haqqında" və "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" qanunların qəbul olunması ilə bank sisteminin hüquqi-normativ bazasının əsası yaradılmışdır. Bank sisteminin quruculuğunun ilkin mərhələsi bank bazarına daxilolmanın liberal şərtləri ilə müşaiət edilmişdir. Bank sisteminin institusional-hüquqi quruculuğu prosesini stimullaşdırmaq məqsədilə ilkin mərhələdə Mərkəzi Bank kapitalla əlaqədar aşağı tələblər qoymaqla və bank fəaliyyətini tənzimləmək üçün kifayət qədər yumşaq nəzarət mexanizm və alətlərindən istifadə edirdi. Bu prosesin nəticəsində 233 bank qeydə alınmış və fəaliyyət göstərirdi. Lakin hal-hazırda baş verən böhran nəticəsində 31 bank və xarici bankların filialları, 47 bank olmayan kredit təşkilatı, 76 kredit ittifaqı fəaliyyət göstərir.Hazırda "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 43- cü maddəsinə uyğun olaraq, Azərbaycanda bank və xarici bankın yerli filialı fəaliyyət və maliyyə vəziyyətini əks etdirən mühasibat uçotu və hesabatını aparmalı, o cümlədən qanunvericiliyə və mühasibat hesabatının beynəlxalq standartlarına uyğun olaraq illik maliyyə hesabatalrını hazırlamalıdır.Banklarda mühasibat uçotunun qaydaları, o cümlədən hesabatların forma, məzmun və dövriliyi Mərkəzi Bank tərəfindən icra hakimiyyətinin müvafiq orqanı ilə razılaşdırılmaqla müəyyənləşdirilir. Bu halda, qanunvericiliyə uyğun olaraq, bankın maliyyə hesabatı ayrıca götürülən bankın və ümumiləşdirilmiş vəziyyətdə onun törəmə müəssisələri, filial, şöbə və nümayəndəliklərinin fəaliyyət və maliyyə vəziyyətini əks etdirir. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunlarına, o cümlədən Mərkəzi Bankın normativ aktlarına və maliyyə hesabatının beynəlxalq standartlarının tələblərinə uyğun olaraq, 2004-cü il 19 fevral tarixli, 3035 saylı "Azərbaycan Respublikasının bank sistemində maliyyə hesabatlarının tərtib və təqdim edilməsi qaydaları" işlənib hazırlanmışdır ki, burada fəaliyyətdə olan banklar tərəfindən maliyyə hesabatlarının hazırlanması qaydaları, o cümlədən birləşdirilmiş hesabatların tərtib olunması və Mərkəzi

Banka təqdim edilməsi, habelə bank nəzarətini həyata keçirərkən birləşdirilmiş hesabatlardan istifadə qaydaları müəyyənləşdirilir.

Maliyyə Bazarlarına Nəzarət Palatasının əsas məqsəd və funksiyalarına aşağıdakılar daxildir:

- maliyyə bazarlarında vahid siyasətin yaradılmasında iştirak və bu siyasətin yetirilməsinin təmin olunması;
- makroprudensial tənzimlənmənin yerinə yetirilməsi;
- maliyyə bazarlarının tənzimlənməsi ilə əlaqədar normativ xarakterli aktların qəbul olunması və müvafiq hüquqi aktların layihələrinin tərtib edilməsində iştirak etmək;
- maliyyə bazarlarında fəaliyyətlərin lisenziyalaşdırılması, icazələrin verilməsi və ləğv edilməsi;
- maliyyə bazarlarında dayanıqlı və universal tənzimlənmənin yerinə yetirilməsi, yoxlamalar həyata keçirilməsi və ya bu yoxlamaların keçirilməsinin üçüncü şəxslərə həvalə olunması və onlardan hesabatların götürülməsi;
- cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin və ya başqa əmlakın rəsmiləşdirilməsi və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarətin təmin olunması, bu sektorda monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən başqa şəxslərin, nəzarət və başqa dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, onlardan daxil olan məlumatların toplanması və təhlili;
- əmanətlərin sığortalanması sahəsində nəzarət sisteminin fəaliyyətinin təmin olunması;
- maliyyə bazarlarında vahid məlumat sisteminin tətbiq edilməsinin təmin olunması.

**Bankların müasir iqtisadi vəziyyəti**. Son illərdə ölkə rəsmilərinin müəyyən etdiyi strateji hədəflərə bank qanunvericiliyinin beynəlxalq qabaqcıl təcrübələrə və standartlara uyğunlaşdırılması, bank sisteminin təhlükəsizliyini və sağlamlığını təmin etmək, bank xidmətlərindən istifadəni genişləndirmək, bank sistemində şəffaflığı artırmaq, bazar intizamını təkmilləşdirmək və bank nəzarəti sahəsinin effektivliyini təkmilləşdirmək kimi amillər daxildir.Pul siyasətinin ötürücülüyünün yüksəldilməsi baxımından digər mühüm şərt banklararası pul bazarının inkişaf etdirilməsidir. Banklararası pul bazarı Mərkəzi Bankın faiz dəhlizi çərçivəsinin iqtisadiyyata təsir kanalının ötürülməsində ən mühüm halqa hesab edilir. Faiz dəhlizində dəyişikliklərin pul bazarında əməliyyatların dəyəri və həcminə təsir imkanlarının məhdudluğu pul siyasətinin iqtisadiyyata ötürücülüyünə də mənfi təsir etmiş olur. Bu baxımdan, Azərbaycan maliyyə-bank sistemində pul bazarının daha yüksək səviyyədə inkişaf etdirilməsi çağırışı qalmaqdadır.

Müasir iqtisadiyyatın daha çox davranış iqtisadiyyatına meyl etməsi, o cümlədən maliyyə-bank xidmətləri istehlakçılarının informasiyaya çıxış imkanlarının genişlənməsi diqqətin pul siyasətinin şəffaflığı və hesabatlılığı

üzərində fokuslanmasını labüd edir. Pul siyasətinin hesabatlılıq və şəffaflıq göstəricilərini mütərəqqi mərkəzi bankçılıq meyarları üzrə qiymətləndirdikdə, nəticə qənaətbəxş səviyyədədir. Bununla belə, keyfiyyət parametrləri üzrə çox sürətlə dəyişən gözləntilər kanalının üzərində diqqətin daim artırılması, pul siyasətinə olan etimadın yüksəldilməsi kimi vəzifələr ən mühüm çağırış olaraq qalmaqdadır.

2004-2014-cü illər ərzində pul siyasətinin nailiyyətlərindən biri də iri neft gəlirlərindən istifadə ilə müşayiət olunmuş sıçrayışlı iqtisadi artım dövründə milli valyutanın həddindən artıq möhkəmlənməsinə yol verilməməsi olmuşdur. Bu dövrdə pul siyasətinin əsas rejimi kimi məzənnənin hədəflənməsi rejiminin seçilməsi mahiyyət etibarilə həmin iqtisadi tsikl üçün adekvat olmuşdur. Bu iqtisadi tsikldə yüksək neft qiymətləri və artan neft ixracı ölkə iqtisadiyyatının xarici balansının əhəmiyyətli yaxşılaşması ilə müşayiət olunmuş, məzənnə siyasətinin ən mühüm hədəflərindən olan iri həcmdə xarici valyuta ehtiyatlarının akkumulyasiyası baş vermişdir. Xarici valyuta ehtiyatlarına qarşı olan beynəlxalq tələblər baxımından, Mərkəzi Bankın malik olduğu ehtiyatlar həmin tələbləri dəfələrlə aşmışdır. Bununla belə, məzənnə dinamikasının qiymətlərə ötürücülüyünün aşağı səviyyədə saxlanılması, digər tərəfdən məzənnə siyasətinin xarici sektorun tənzimlənməsinə təsir imkanlarının əhəmiyyətli səviyyədə genişləndirilməsi mühüm vəzifə olaraq qalmaqdadır.

**Strateji yol xəritələrində bank fəaliyyətinin əsas prioritetləri və görüləcək tədbirlər.** Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi beynəlxalq iqtisadiyyat və maliyyə bazarlarında müşahidə olunan hadisələrə çevik uyğunlaşma və postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün maliyyə sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla işlənib hazırlanmışdır. Yol Xəritəsi maliyyə xidmətləri sektorunun çevikliyə, rəqabətqabiliyyətliliyə, innovativliyə və iqtisadi inkişafa dəstək prinsipləri əsasında tərtib edilmişdir. Strateji Yol Xərtəsində bank sistemi üçün aşağıdakı prioritetlər və tədbirlər müəyyənləşdirilmişdir.

- **Bank sisteminin kapitallaşması və likvidliyinin təmin edilməsi**

✓ Bank sektorunun hərtərəfli diaqnostikasının aparılması

✓ Problemli bankların kapitallaşdırılması üzrə tədbirlər planının hazırlanması

✓ Planın icrası və monitorinqin aparılması

✓ Problemli bankların restrukturizasiyası üzrə institusional və hüquqi mexanizmlərin yaradılması

✓ Kapital dayanıqlılığı bərpa olunmayan bankların restrukturizasiyası

✓ Əmanətlərin sığortalanması mexanizminin təkmilləşdirilməsi

- ✓ Likvidliyin verilməsi alətlərinin genişləndirilməsi
- **Banklararası pul bazarında aktivliyin artırılması**
- ✓ Banklararası pul bazarının təşviqi
- ✓ Təminat çeşidinin artırılması
- ✓ Marketmeyker institutunun yaradılması
- **Banklarda daha sağlam risk idarəetməsinin təmin edilməsi**
- ✓ Bank sektorunda risk idarəetməsinin diaqnostikası
- ✓ Yol xəritəsinin hazırlanması
- ✓ Sistem əhəmiyyətli bankların tənzimləmə mexanizminin müəyyən edilməsi
- **Bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üçün tənzimləmə mexanizminin təkmilləşdirilməsi**
- ✓ Banklarda rəqəmsallaşma ilə bağlı cari vəziyyətin qiymətləndirilməsi
- ✓ Tənzimləmə mexanizmində zəruri dəyişikliklərin müəyyən edilməsi
- ✓ Müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi

Azərbaycan Respublikasının bank sistemində yaranan böhranın iqtisadiyyatın inkişafına vurduğu ağır nəticələri nəzərə alaraq Azərbaycan Respublikasında bank sisteminin işinin təkmilləşdirilməsi əsas məsələ kimi ortaya çıxır. Bank sistemi müəyyən mənada real iqtisadiyyatın barometridir, iqtisadi inkişafın göstəricisidir. Məhz buna görə bütün inkişaf etməkdə olan ölkələrdə bank sisteminin idarə olunması mexanizminin təkmilləşdirilməsinə xüsusi nəzər yetirilməlidir. Bank sisteminin işində meydana gələn bu hallar Mərkəzi Bankın apardığı pulkredit siyasəti ilə əlaqəlidir. Buna görə ilk növbədə Mərkəzi Bankın işi təkmilləşdirilməlidir. Azərbaycan Respublikası Mərkəzi Bankın işində bəzi nöqsanlar və çatışmazlıqlar vardır ki, bu da cəmiyyətin sosial-iqtisadi inkişafına, iqtisadiyyatın tənzimlənməsində maddi dəyər və natural mal axının tarazlığına kifayət qədər mənfi təsir göstərmişdir. Bunun və digər mənfi halların nəticəsidir ki, ölkə üzrə əhalidə və müəssisələrdə olan pul kütləsi rəsmi dövriyyəyə cəlb oluna bilmir və bununla da dövlət və yaxud da şəxslərin bu və digər ehtiyaclarına yönəldilə bilmir. Əhali və digər müştərilərin banklara güvəni tamamilə itmişdir. Normal kredit bazarı və bütövlükdə kapital bazarı formalaşmamışdır. Bu səbəblə ölkənin Mərkəzi Bankının və eləcə də digər kommersiya banklarının işinin yaxşılaşdırılmasında prioritet addımlar atılmalı və bütövlükdə onların işi ölkənin sosial-iqtisadi inkişafında baş verən dərin böhranın aradan qaldırılmasına yönəldilməlidir. Mərkəzi Bankın fəaliyyətinin təkmilləşdirilməsinin bəzi istiqamətlərini aşağıdakı kimi göstərmək olar. İlk öncə Mərkəzi Bankın tabeçilik məsələsinə baxılmaldır, ali icra hakimiyyətinin tabeçiliyindən alınaraq yalnız parlamentin tabeçiliyinə verilməlidir. Çünki,

Mərkəzi Bank ali icra hakimiyyətinin tabeçiliyində olduqda müstəqil pul-kredit siyasəti yeridə bilmir və hökümətin siyasətinə uyğun siyasət yeridir. Son dövrdə mərkəzi bankların müstəqilliyi böyük bir problem kim ortaya çıxmışdır və əksər ölkələrdə bu istiqamətlə müsbət addımlar atılır. Bankların müstəqilliyinin artırılması ilə yanaşı, onlara ciddi nəzarət sisteminin yaradılması da vacibdir. Belə bir sistem inkişaf etmiş ölkələrin hamısında yaradılmışdır və mərkəz banklarına, həmçinin bütün kommersiya banklarına nəzarəti dövlət həyata keçirir. Azərbaycanda bank sistemi rəsmi olaraq dövlət və hökümət nəzarətindən kənarda qalmışdır. Buna görə də Azərbaycanda Mərkəzi Bank və bütövlükdə bank sisteminə dövlət nəzarət sisteminin yaradılması vacibdir. Lakin, bu, müəyyən bir çərçivə daxilində olmalıdır.

## Ədəbiyyat siyahısı

1. "Mərkəzi Bank haqqında" Azərbaycan Respublikasının Qanunu
2. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu
3. "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"
4. H.B.Allahverdiyev. "İqtisadiyyatın hüquqi tənzimlənməsi" Bakı 2002
5. Z.F.Məmmədov. "Banklar haqqında normativ-hüquqi aktlar toplusu" Bakı,2009
6. Takan, M., & Boyacıoğlu, M. A. "Bankacılık Teori, Uygulama ve Yöntem". Ankara: Nobel Akademik Yayıncılık. 2011
7. Pehlivanlı, D. Dünya İslami Denetleme Kurulu Uygulamaları İle Türkiye Faizsiz Bankacılık Sektörü Uygulamaları Karşılaştırması. Finans Politik ve Ekonomik Yorumlar, 48(552): 59-66 2011
8. Öçal, T., & Çolak, F. Finansal Sistem ve Bankalar. Ankara: Nobel Yayın Dağıtım. 1999
9. Battal, A. Yeni Bankalar Kanunu'na Göre Özel Finans Kurumlarının Hukuki Temeli ve Bankacılık Sistemi İçindeki Yeri. Editor: İ. Usul, Türkiye'de Özel Finans Kurumları: Teori ve Uygulama: 197-209 İstanbul: Albaraka Türk Yayınları. 2000
10. Albayrak, Y. E., & Erkut, H. Banka Performans Değerlendirmede Analitik Hiyerarşi Süreç Yaklaşımı. İstanbul Teknik Üniversitesi Mühendislik Dergisi, 4(6): 47-58. 2005
11. Aloğlu, Z. T. Bankacılık Sektörünün Karşılaştığı Riskler ve Bankacılık Krizler Üzerindeki Etkileri. Türkiye Cumhuriyeti Merkez Bankası Uzmanlık Tezi. Ankara: Türkiye Cumhuriyeti Merkez Bankası Bankacılık ve Finansal Kuruluşlar Genel Müdürlüğü. 2005.
12. www.president.az

13. www.fimsa.az
14. www.cbar.az
15. www.banker.az
16. www.e-qanun.az
17. www.economy.gov.az

A.Huseynzade

The basic status of professional state of banks and legal influence

Summary

The banking system, which is an important element of the economic system, is a very important area for its structure and coverage. Formation of the banking system creates economic and political relations, accelerates the integration of the country into the world economy, ensures strong and dynamic development in terms of economic, political independence. As a result of the global economic crisis, the fall in oil prices in the world market, the banking system in Azerbaijan has faced serious problems. The article deals with the strategic objectives and priorities of the banking system in the strategic roadmap, the supervision of banks and their regulation in new economic conditions.

А.Гусейнзаде

Основное состояние профессионального состояния банков и юридического влияния

**Резюме**

Банковская система, как важный элемент экономической системы, по своей структуре и области охвата является очень важной областью. Формирование банковской системы создает экономические и политические отношения, ускоряет интеграцию страны в мировую экономику, обеспечивает сильное и динамичное развитие с точки зрения экономической и политической независимости. В результате продолжения глобального экономического кризиса, падения цен на нефть на мировом рынке, банковская система в Азербайджане столкнулась с серьезными проблемами. В статье рассматриваются стратегические цели и приоритеты стоявшие перед банковской системы в стратегической дорожной карте, Контроль за банками и их регулирование в новых экономических условиях.

**Rəyçi: Ceyhun Hacıyev**
**iqtisad üzrə fəlsəfə doktoru**